UOT 008

**Gülgəz MəmmədovaAzərbaycan Turizm və MenecementUniversitetinin doktorantı**
***AZ 1110, Bakı, Koroğlu Rəhimov, 822/823***
***E-mail***: gulgaz.m@atmu.edu.az

# EKOLOJİ MƏDƏNİYYƏTİN FORMALAŞMASINDAEKOLOJİ ŞÜUR PROBLEMLƏRİ

**Xülasə:** Məqalədə ekoloji şüurun və ekoloji mədəniyyətin qarşılqılı xüsusiyyətləri öz əksini tapmışdır. Yeni kollektiv şəkildə təbiətin qorunmasını təmin edən insanın keyfiyyətlərini formalaşdıran ekoloji şüur və ekoloji mədəniyyətin dialektik birliyi göstərilir. Ekoloji şüurun istiqamətində sosial və təbii qarşılıqlı əlaqələrin optimallaşdırılmasına yönəldilmiş insanların ümumi fəaliyyətinin fəal, birgə, müəyyən bir şəkildə hazırkı mərhələdə həyata keçirilir.

**Açar sözlər:** ekoloji mədəniyyətin formalaşması, ekoloji şüur, ekoloji bilik, ekoloji təhsil, ekoloji tərbiyə

Ən qədim zamanlardan bəşər övladının ən böyük istəyi təbiət qüvvələrini ram etmək və ondan öz tələbatlarının ödənilməsi üçün istifadə etmək olmuşdur. Lakin buna heç də asanlıqla nail olunmamışdır. XVI-XVII əsrlərdə, təqribən 150 il ərzində bütövlükdə dünyanın elmi mənzərəsini dəyişərək böyük kəşflər gerçəkləşir. Yeni elmi kəşf və ixtiralar sonrakı mərhələdə sənaye cəmiyyətinin əsasında duracaq texniki – texnoloji inkişafı şərtləndirir. Böyük ingilis filosofu F. Bekonun “Elm güc deməkdir” şüarını əlində bayraq edən bəşər övladı təqribən iki əsr ərzində təbiət üzərində ağalığını “legitimləşdirir”.

Adətən müasir dövrün qlobal problemlərini onların mənbəyi və yaranma səbəblərinə görə bir çox qrupa ayırırlar: intersosial, sosial təbii, sosial və s. Bu təsnifatdan görünür ki, ikinci qrup insan və cəmiyyətinin təbiətlə qarşılıqlı münasibətləri zəminində meydana gəlmiş problemləri ehtiva edir. Bütövlükdə ekoloji problemlər adlandırılan bu problemlər əsasən bunlardır: təbii resursların tükənməsi, ətraf mühitin çirklənməsi və onun nəticəsində təbii mühitin deqredasiyası, deyilmiş hər iki problemlə sıx əlaqəli olan növ müxtəlifliyinin kasadlaşması.

Təbiət və cəmiyyətin qarşılıqlı münasibətləri mürəkkəb və ziddiyyətli səviyyə daşıyır. O tarixin müəyyən mərəhələlərindən fərqli formalarda təzahür etmişdir. Lap qədim zamanlardan insanlar təbiətdənöz yaşayış şərtlərini ödəmək üçün istifadə etmişlər. Bu mərhələ tarixi iqtisadi konteksdə yığıcılıq və ovçuluq adlandırılır. Təqribən 10 min il əvvəl bəşəriyyət öz inkişafında yeni mərhələyə: əkinçilik və heyvandarlıq mərhələsinə keçir. Tədricən insanların təbiətə təsiri dərinləşir və genişlənir. Təqribən XVII əsrdə sənaye cəmiyyətinin yaranması ilə insanların ətraf mühitə təsiri təbiətin deqredasiyasına aparacaq yolun başlanğıcı olur.

“Təbiət və cəmiyyətin qarşılıqlı münasibətləri qlobal, ümümbəşəri ekoloji problemdir. Artıqekoloji problemlərin genişlənməsi insanın özünün mövcudluğu üçün təhlükə törətməkdədir. Müasir ekoloji problemlərin mahiyyəti, insanın təbii mövcudluq mühitinin qlobal dəyişməsi, onun resurslarının sürətlə azalması, təbiətdə bərpaolunma proseslərinin zəifləməsidir ki, bu da öz növbəsində insan cəmiyyətinin gələcəyini sual altında qoyur.

Müasir dövrdə olan qlobal problemlərin ən mühümü insan-təbiət münasibətləridir desək yanılmarıq. Haqlı olaraq müasir alman alimi V. Hesle hesab edir ki, insan son 40 il ərzində mənimsənmiş ehtiyaclarının əksəriyyətindən üz döndərməyə məcburdu – çünki onlar ətraf mühitə ziyan vururlar və əgər bunu hər kəs edəcəksə Yer kürəsi hökmən həlak olacaq. [4, s. 97]

Ekoloji mövzu, bütün sahələrə və ictimai şüurun səviyyələrinə daxil olaraq, ekoloji şüurun formalaşmasını və bəşəriyyətin dünyada öz yerinin dərk etməsinin başlanmasını təsdiq edir. Bu prosesdə təbiətlə ahəngdar münasibətləri nöqteyi-nəzərindən dəyərli oriyentasiya dəyişməsi baş verir.

Ekoloji problemlərin qlobal xarakteri, ekoloji təhlükələrin artması, xalqların və dövlətlərin səyləri əsasında onların öhdəsindən gəlməsi üçün şəraitlərin yaradılması ehtiyacı insanların şüurunda "ekolojinin" tamlığının, dərinliyinin, bütövlülüyün əks edilməsinin sistemliliyi haqqında məsələni aktuallaşdırmağa imkan verir. "Ekoloji şüur" anlayışını milliləşdirmək, ətraf mühitin problemlərinin insanlar tərəfindən qavranmasının öyrənilməsinin hədəflərinə və məsələlərinə yaxınlaşdırmaq lazımdır. İnsan və təbiət münasibətlərinin çoxqatlılığı ekoloji şüurun mürəkkəb strukturunu şərtləndirir. Ekoloji şüurda həm bu münasibətlərin və əlaqələrin səmərəli-intellektual tərəfləri əks etdirilir, həm də ekoloji şüurun hissiyyatlı-emosional tərəfi müəyyən şəkildə nəticələrlə, ümumiləşdirmələrlə sintezləşdirilir və s. [8, s. 123]

Ekoloji şüurun, mexanizmlərin, onun formalaşmasının vasitələri bir sıra şərtlərlə diktə edilir: birincisi, təbiətin deqradasiyasına səbəb olan təsərrüfat fəaliyyətinin təzyiqinin gücləndirilməsi; ikincisi, bərpa olunmayan təbii resursların tükənilməsi; üçüncüsü, bir tərəfdən insanın sağlamlığına ehtiyacın artması, digər tərəfdən isə təbii mühitdə dəyişikliklər nəticəsində insanın vəziyyətində əlverişsiz dəyişmələr arasında ziddiyyətin kəskinləşməsi.

Burada ekoloji şüür anlayışının aydınlaşdırılması və bir qədər də konkretləşdiriləsminə ehtiyac duyulur. Ekoloji şüur - formalaşma mərhələsində olan ictimai şüurun formasıdır. Bu anlayışa ideyaların, nəzəriyyələrin, baxışların, ictimai varlığın ekoloji tərəfini əks etdirən motivasiyalar məcmusu daxildir. Həmçinin bura "insan-cəmiyyət-təbiət" sisteminin optimal durumuna nail olmasına yönləndirilmiş tənzimləyici prinsiplər və davranış normaları daxil olmaqla məhz insan və təbiət arasında həyata keçən münasibətlər təcrübəsi daxildir. Digər tərəfdən ekoloji şüur ictimai şüurun vəziyyətidir. Varlığı düzgün əks etdirən şüur özü ekoloji istiqamətdə insanın dəyişik fəaliyyətinə səbəb olur. Bu sözün ən geniş mənasında ekoloji şüur varlığın hissələri kimi təbiətin əks edilməsiylə bağlı ictimai və fərdi şüur sahəsini təqdim edir.

Həmçinin nəzərə almaq lazımdır ki, çox vaxt ekoloji şüur elmi düşüncənin nisbətən yaxın vaxtlarda əmələ gəlmiş üsulu kimi baxılır. Lakin belə şərh kifayət qədər dar hesab edilir. Müasir dövrdə ekoloji şüurun inkişafı həm elmi-texniki inqilabın səviyyəsi ilə, həm də onun humanist ideyalarıyla sıx qarşılıqlı əlaqəsiylə, ideaalların, inamların, dəyərli isiqamətlərin olması ilə təyin edilir. Ekoloji şüurun formalaşması qloballıq, əsas dünyagörüşü məsələlərinin və problemlərin yenidən mənalandırılması, elmə dayaq, humanist dəyərləriylə elmin birləşilməsi, daha geniş ictimai qatların maraqlarına görə öz maraqlarından keçmək qabiliyyəti, təbiətin saxlanılması naminə hərəkət etmək cəhdi, planetdə həyatın xilası kimi əlamətlərlə səciyyələnir. Ekoloji şüurun formalaşması dörd istiqamətdə yönləndirilib: elm, iqtisadiyyat, mədəniyyət (mədəni irsin hissəsi kimi təbiəti saxlamaq arzusu ilə ifadə edilir) və siyasət (insanın harmonik mövcudluğu üçün şəraitlərin yaradılması). [1, s. 89]

Ekoloji şüurun məzmunu ekoloji münasibətlər və ekoloji hərəkətlər kimi anlayışlar vasitəsilə açılır. Ekoloji münasibətlərə müxtəlif növ empirik bilik, baxış və bu və ya digər mədəniyyətin adət ənənələri daxildir, lakin ekoloji hərəkətlərə əxlaqlı xarakterin tənzim edən prinsiplərinin sistemi daxildir. Ekoloji şüurun strukturunda üç nisbi müstəqil komponenti fərqləndirirlər: rasional, hissi-emosional, davranış-iradəvi. Hər üç komponent müvafiq olaraq ekoloji biliyə, ekoloji situasiyanın dəyərləndirlməsinə və ekoloji davranışa uyğun gəlir. Ekoloji davranış ayrı-ayrı hərəkətlərdən (müəyyən vəziyyətlər, konkret fəaliyyət, bilik və bacarıqların məcmusu) və insanın bu hərəkətlərə münasibətindən formalaşır.

Ekoşüurun əlverişli formalaşması üçün uyğun olan qanunlar, ictimai rəy və uşaqlıqdan ekoloji tərbiyə və təhsil lazımdır. Təbii obyektlərin subyektiv mənimsəməsi ekoloji şüurun ən əhəmiyyətli xüsusiyyətidir.

Ekoloji şüura mədəniyyətin geniş kontekstindən baxaraq, adətən aşağıdakı aspektlər ayırırlar:

- insanın məkana dərk edilmiş, dərrakəli münasibəti;
- təbii mühitdə insanın həyat fəaliyyətinin optimal şəraitinin qurulması;
- təsərrüffat-əməli aspekt;
- mədəni-estetik və etik aspekt;
- rasional və intuitiv, məntiqi və emosional komponentləri özündə birləşdirən mənəvi aspekt. [5, s. 30]

Ekoloji şüurun formalaşması prosesini müasir dövrdə ictimai şüurun inkişafının qanunauyğunluğu kimi hesab etmək olar. Ekoloji şüurun formalaşması cəmiyyət və təbiətin münasibətlərinin yaranmış stereotiplərinə qarşı etiraz hərəkətləri inkişaf edikçə baş verir. Ekoloji hərəkətlərin təsiri altında cəmiyyətin və təbiətin yeni qarşılıqlı münasibələr fəlsəfəsi müəyyən edilmişdir
- ekoloji fəlsəfə.

Ekoloji problemin dərk edilməsinin ilk mərhələsində qanuni olaraq yalnız ekoloji şüurun ayrı-ayrı xüsusiyyətlərinə malik olan ekolojiləşmiş şüur haqqında danışmaq olar. Bu insanların özlərinə və təbii mühitə yeni münasibətinin birinci təzahürləridir; mövcud vəziyyətə, yəni biosferanın çirkləndirilməsi və deqradasiyası ilə bağlı həyəcan təbili, bu şüurun əsas xüsusiyyətidir.

Ekoloji şüur fərdi, ictimai, ümumbəşər şüurların mürəkkəb nisbətini təsvir edir. Ekoloji şüur elmin inkişafıyla bağlıdır, lakin elmi nəticələrin yayılması adətən cəmiyyətdə yaranmış konkret sosial əlaqələrdən asılıdır. Yeni ekoloji şüur onunla səciyyələnir ki, ilk növbədə texnoloji inkişafının hədəf və məsələləri və sonra isə sosial proseslər yenidən düşünülür. Ekoloji şüur qlobal sivilizasiya böhranını və onun provokasiya edilmiş bir sıra həyəcanların ictimai-siyasi hadisələrini əks etdirir.

Ekoloji şüuru olduqca mürəkkəb, öz özünü tənzimləyən, təkcə insana deyil, həm də ətraf mühitə yönəldilən sistem kimi də dərk etmək olar. [ 6, s. 324]

Bəşəriyyətin tarixi boyunca yaradılmış mədəni mühitin müxtəlif elementlərinin bərpası və qorunması yollarını dərk edilməsi çərçivəsində ekoloji yanaşma sosial ekologiyanın daxilində "mədəniyyətin ekologiyası" kimi anlayışın ayırmasına gətirib çıxardı.

"Ekoloji şüur" və "ekoloji mədəniyyət"in fərqini izah etdikdə ekoloji şüur anlayışınınməzmununda əsas uyğun olan biliklərin mənimsənməsidir, ekoloji vəziyyət haqqında məlumatlandırılmadır, ekoloji mədəniyyət insanın hərəkətləri, davranışları vasitəsilə onun iç dünyasını işıqlandırır, şüurun ekolojiləşməsinin real səviyyəsini göstərir. [2, s. 149]

Ekoloji mədəniyyət - sağlam həyat tərzinə, möhkəm ictimai-iqtisadi inkişafa, ölkənin və hər bir insanın ekoloji təhlükəsizliyinə imkan yaradan insanın ətraf mühitlə qarşılıqlı əlaqəsində həyat fəaliyyətinin varis olunan təcrübəsidir.

Ekoloji mədəniyyət - təbii mühitlə əlaqələndirilən insan fəaliyyətini və düşüncələrini əhatə edən mədəniyyətin orqanik, ayrılmaz hissəsidir. Rus alimi B.T.Lixaçovun fikrincə, ekoloji mədəniyyətin mahiyyəti, ekoloji inkişaf etdirilmiş şüurun, emosional-psixi vəziyyətlərin və elmi cəhətdən əsaslandırılmış iradəli əməli-praktik fəaliyyətin orqanik birliyi kimi baxıla bilər. Ekoloji mədəniyyət bütövlükdə şəxsiyyətin mahiyyətiylə, onun müxtəlif tərəfləriylə və keyfiyyətlərlə üzvi sürətdə bağlıdır. Məsələn, fəlsəfə mədəniyyəti insana onun təyinatını təbiətin və cəmiyyətin məhsulu kimi dərk etməyə və anlamağa imkan verir; siyasi - insanların təsərrüfat fəaliyyəti və təbiətin vəziyyəti arasında ekoloji tarazlığı təmin etməyə icazə verir; hüquqi - insanın təbiətlə qarşılıqlı əlaqəsini qanunla icazə verilmiş çərçivədə saxlayır; estetik - təbiətdə gözəlliyin və harmoniyanın emosional qavraışı üçün şərait yaradır; fiziki - insanı onun təbii əsas güclərinin effekiv inkişafına yönəldir; əxlaqi - şəxsiyyətin təbiətə qarşı münasibətlərini ruhlandırır və s. Bütün bu mədəniyyətlərin qarşılıqlı əlaqəsi ekoloji mədəniyyəti yaradır. "Ekoloji mədəniyyət" anlayışı "cəmiyyət-təbiət" sisteminin saxlanmasına və inkişafına imkan yaradan mədəniyyəti əhatə edir.

Biz ekoloji mədəniyyəti insanın həyat fəaliyyətinin əxlaqlı-mənəvi sferası kimi müəyyən edirik, hansı ki, onun təbiətlə qarşılıqlı təsirinin xüsusiyyətini xarakterizə edir və qarşılıqlı əlaqəli elementlər sistemini özünə daxil edir: ekoloji şüur, ekoloji münasibət və ekoloji fəaliyyəti. Müasir elmi ədəbiyyatda adətən ekoloji mədəniyyət sistemində iki tərəf ayırırlar: maddi (cəmiyyətin təbiətlə qarşılıqlı təsirinin bütün formaları və bu qarşılıqlı təsirin nəticələri) və mənəvi (ekoloji biliklər, bacarıqlar, inamlar, vərdişlər). Rus alimi İ.P.Safronov cəmiyyətin ekoloji mədəniyyətini dialektik qarşılıqlı əlaqəli elementlər sistemi kimi təqdim edir: ekoloji münasibətlər, ekoloji şüur və ekoloji fəaliyyət. [6, s. 63]

Bu gün ümumiyyətlə yüksək mədəniyyət və xüsusi olaraq ekoloji mədəniyyət əlaməti təbiidən sosialın fərqinin dərəcəsi kimi yox, onların birliyinin dərəcəsi kimi baxılır.

Kulturoloji mövqeydən ekoloji mədəniyyət bütövlükdə cəmiyyətin mədəniyyət komponentinitəşkil edir və təbii mühitə insanın bilavasitə təsirini həyata keçirən vasitələrin qiymətləndirilməsini və həmçinin təbiətin mənəvi-praktik mənimsəmənin vasitələrini (uyğun olan biliklər, dünyagörüşülər, mədəni ənənələr, qiymətli quraşdırmalar və s.) özündə cəmləşdirir.

Qeyd etmək lazımdır ki, "ekoloji mədəniyyət" anlayışı elmi dövriyə üçün daha yeni elm sahəsidir və bu səbəbdən hələ onun hamı tərəfindən qəbul edilmiş sabitləşmiş tərifi mövcud deyil.

Ekoloji şüur ekoloji mədəniyyətin mənəvi başlanğıcdır. Ekoloji mədəniyyət cəmiyyətin, sosial qrupun, şəxsiyyətin ekoloji şüurunun inkişafının müəyyən səviyyəsi olaraq iki əsas formada çıxış edir:

1) dünya görüşü və ekoloji bilikləri, ideyaları, idealları, baxışları, təsəvvürləri, hədəfləri, dəyərləri, normaları, ənənələri, nümunələri, stereotipləri daxil edən nəzəri şüur;

2) həm nəzəri, həm də adi şüurla bağlı hisləri, emosiyaları, inamları, quraşdırmaları daxil edən şüurun ictimai-psixoloji komponenti. [3, s. 44]

Nəticədə qeyd etmək lazımdır ki, təbiətlə insanların qarşılıqlı əlaqəsi problemi yeni deyil, o həmişə var idi. Amma hal-hazırda, insanın və təbiətin qarşılıqlı təsirinin, həmçinin insan cəmiyyətinin ətraf mühitə təsirinin ekoloji problemi daha da aktuallaşaraq və böyük miqyas almışdır. Ekoloji şüursuz cəmiyyət həyatda qala bilməz. Bu şüur elmin, texnikanın və istehsalın bütün sahələrinə daxil olmalıdır və onları elə dəyişdirməlidir ki, onlar bəşəriyyətin həlak olmasına deyil, sağ qalmasına imkan yaratmalıdırlar. Ekoloji şüurun mahiyyəti cəmiyyətin real praktik münasibətlərinin əks etdirilməsidir. Cəmiyyət ekoloji normaları, davranışın qaydalarını bilməlidir, ekoloji mədəniyyətin yüksək səviyyəsinə malik olmalıdırlar. Ekoloji mədəniyyətin formalaşmasının prosesi üç problemin vəhdəti kimi baxılır: yaşama mühitinin çirkləndirilməsinin fəlakətli nəticələrinin geniş izahı; iqtisadiyyatın təşkilində və cəmiyyətin fəaliyyətində və həyatın digər sferalarında ekoloji yanaşmanın əldə edilməsi; ekoloji şüurun formalaşması. İctimai həyat şüurun formalaşmasına böyük təsir göstərir. Ekoloji mədəniyyət bütovlükdə şəxsiyyətin mahiyyətiylə, onun müxtəlif tərəfləriylə və keyfiyyətlərlə üzvi sürətdə bağlıdır. Əxlaqlı- ekoloji məsuliyyət sferasının peşəkar əxlaq çərçivəsində başlanmasını və qüvvədə olmasını güman etmək heç də düzgün deyil. Ayrı-ayrı insanların ekoloji şüuru ekoloji mədəniyyətin böyük binasının qurulduğu "kiçik kərpiclərdir". Bu "kərpiclərdən" biri yapışmasa qurulacaq bina möhkəm olmayacaq. Ona görə də ekolojiləşmə prosesi əhatəli olmalı, insanın sosiallaşmasının ilk institutlarından-ailə, uşaq bağçası, məktəblərdə başlamalıdır. Yalnız bu halda bəşəriyyətin qarantına çevrilərək ekoloji şüur və ekoloji mədəniyyətin formalaşmasından əminliklə söhbət açmaq olar.

## **Ədəbiyyat**:


1. Александрова Р.И., Смольянов А.В. Экология и мораль.–М.: Знание, 1999.-120с.
2. Дерябо С.Д., Ясвин В.А. Экологическая педагогика и психология. – Ростов-на-Дону: Феникс, 1996.-436с.
3. Экологическкя культура современного общества / Материалы международного симпозиума. – Новосибирск: Наука, 2000.-302с.
4. Иванова Т.В. Экологические ценности в общественном сознании // Вопросы психологии, 1999, № 3, с.
5. Лихачев Б.Т. Философия воспитания. – М., 1995., с.
6. Məmmədov Q., Məmmədova S., Hüseynli E., Həşimov A. Sosial ekologiya. Bakı-2015, 670 s.
7. Моисеев Н.Н. Нравственность и феномен эволюции. Экологический императив и этика XXI века // ОНС, 1994, № 6, с.
8. Панов В.И. Введение в экологическую психологию: Учеб. пособие. Часть1. – М.: Изд-во МНЭПУ, 2001.-144с.


**Гюльгез Мамедова**

## **Роль экологического сознания в формировании экологической культуры**


**Резюме**

В статье выявляются особенности взаимосвязи экологического сознания и экологической культуры. Диалектическое единство экологического сознания и экологической культуры отражает сформировавшееся новое качество человечества, способного к коллективному взаимодействию для обеспечения сохранности природы. Направленность экологического сознания реализуется на современном этапе в активной, совместной, определенным образом общей деятельности людей, направленной на оптимизацию социально-природного взаимодействия.


**Ключевые слова:** формирование экологической культуры, экологическое сознание, экологические знания, экологическое образование, экологическое воспитание, экологическая проблема, экологизация, взаимодействие человека и природы.

**Gulgez Mammadova**

## **The role of ecological consciousness in the formation of ecological culture**


**Summary**

The article reveals the features of the relationship between environmental consciousness and ecological culture. Dialectical unity of ecological consciousness and ecological culture reflects the newly

formed quality of mankind, capable of collective interaction to ensure the preservation of nature. The direction of ecological consciousness is realized at the present stage in the active, joint, definite manner of the general activity of people aimed at optimizing social and natural interaction.

**Keywords*:*** formation of ecological culture, ecological consciousness, ecological knowledge, ecological education, ecological upbringing, ecological problem, ecologization, human-nature interaction.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 15.11.2017 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 22.11.2017Məqalənin çapa qəbul olunma tarixi: 18.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: fəlsəfə üzrə fəlsəfə doktoru, dosent TamillaƏhmədova**
**ADMİU-nun Elmi Şurasının 21 dekabr 2017-ci il, 04 saylı qərarı ilə çap olunur**